


*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 181 (21.082)

*23 sentyabr 2014-cü il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Sentyabrın 22-də Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin birinci mərhələsi çərçivəsində bərə terminalının açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində iştirak edib.

Dövlətimizin başçısı əvvəlcə görülən işlərlə bağlı fotostendə və kompleksin maketinə baxdı.

Prezident İlham Əliyevə görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, birinci mərhələdə limanın yükaşırma qabiliyyəti ildə 10 milyon ton yük və 50 min konteynerdən ibarət olacaq. İkinci mərhələdə limanın yükaşırma gücü 17 milyon ton yük və 150 min konteynerə, üçüncü mərhələnin yekununda isə 25 milyon ton yük və 1 milyon konteynerə çatdırılacaq. Limanda layihə üzrə logistika mərkəzinin yaradılması da mühüm əhəmiyyət kəsb edir. İlkin mərhələdə burada 100 min konteynerin saxlanması və yük sahiblərinə müxtəlif növ xidmətlərin göstərilməsi nəzərdə tutulub.

Dövlətimizin başçısı mərasimdə çıxış etdi.

Daha sonra Prezident İlham Əliyev bərə terminalını işə saldı.

Prezident İlham Əliyev yük vaqonlarının "Bərdə" və "Azərbaycan" gəmi-bərələrinə yüklənərək terminaldan yola salınması prosesinə baxdı.

Sonda xatirə şəkli çəkdirildi.



## Naxçıvanda yaşıllıqlara qulluq diqqət mərkəzində saxlanılır



Əkilən hər bir ağac, salınan meyvə bağları və yaşıllıq zolaqları ətraf mühitin qorunması istiqamətində həyata keçirilən tədbirlərin tərkib hissəsidir. Muxtar respublikada təbiətə qayğını özündə təzahür etdirən iməciliklərin keçirilməsi də bu məqsədə xidmət edir. Son illər iməciliklər yolu ilə salınan yaşıllıqlar qədim diyarın təbiətinin zənginləşdirilməsinə səbəb olmuş, sağlam ekoloji mühit formalaşmışdır.

Sentyabrın 20-də muxtar respublikada növbəti iməciliklər keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin və Naxçıvan Şəhər İcra Hakimiyyətinin kollektivləri Uzunoba Su Anbarının ətrafında terras üsulu ilə salınmış 3,6 hektarlıq meyvə bağında keçirilən iməcilikdə iştirak etmişlər.

Ötən iməciliklər dövründə ərazidə 3 minə yaxın müxtəlif meyvə tingləri əkilmiş, damcılı suvarma sistemi quraşdırılmışdır. İməcilik iştirakçıları ərazidə təmizlik işləri görmüş, meyvə tinglərinə aqrotexniki qulluq göstərilmiş, dənə üsulu ilə əkin aparılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov iməcilikdə iştirak etmiş, payızlıq ağac əkininə hazırlıqla bağlı müvafiq tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Babək rayonunun Qahab kəndi müasirləşən yaşayış məntəqələri sırasına qoşulmuşdur

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Bizim məqsədimiz birdir – ölkəmizi daha da inkişaf etdirmək, gücləndirmək, daha da güclü Azərbaycan yaratmaq. Biz bu məqsədə doğru uğurla gedirik. Əgər hər bir bölgədə və hər bir kənddə bütün məsələlər öz həllini taparsa, onda ölkənin bütün məsələləri həll olunacaqdır".***

Bu gün Naxçıvan Muxtar Respublikasında həyata keçirilən kompleks quruculuq tədbirləri şəhər və rayon mərkəzləri ilə yanaşı, kəndləri də əhatə etmişdir. Yeni kənd və xidmət mərkəzlərinin, abad yolların, məktəb binalarının və səhiyyə müəssisələrinin tikintisi müasir Naxçıvanın inkişaf göstəricisinə çevrilmişdir. Bu həm də əhalinin rifah halının yaxşılaşmasına göstərilən qayğının təzahürüdür.

Sentyabrın 22-də Babək rayonunun Qahab kəndində yeni sosial obyektlər istifadəyə verilmişdir.

## Yarımca-Qahab-Nəcəfəlidizə-Naxışnərgiz avtomobil yolu yenidən qurulmuşdur





Sentyabrın 22-də yol-nəqliyyat infrastrukturunun yeniləşməsi istiqamətində görülən tədbirlərin davamı olaraq, Yarımca-Qahab-Nəcəfəlidizə-Naxışnərgiz avtomobil yolunun istifadəyə verilməsi münasibətilə tədbir keçirilmişdir.

Qahab kənd sakini Hidayət Hacıyev minnətdarlıq edərək demişdir ki, bu gün muxtar respublikanın hər bir yaşayış məntəqəsi özünün abad yolu ilə seçilir. Yol rahatlıq, mədəniyyət, yüksək rifah deməkdir. Artıq Qahab və ətraf kəndləri birləşdirən bu yol yaşayış məntəqələrinin inkişafına öz töhfəsini verəcəkdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yeni yolun istifadəyə verilməsi münasibətilə sakinləri təbrik edərək demişdir: "Bu gün Qahab kəndində yeni sosial obyektlər istifadəyə verilir. Kənddə yaradılan müasir infrastrukturlar içərisində yol tikintisi xüsusi əhəmiyyət kəsb edir. Ona görə ki, əsaslı şəkildə yenidən qurulan və 4 yaşayış məntəqəsini əhatə edən yoldan 6 minə yaxın sakin və gələn qonaqlar istifadə edəcəklər. Abad yol hər bir yaşayış məntəqəsinin inkişafı, əhalinin isə rahatlığı deməkdir. 14,5 kilometr uzunluğundakı Yarımca-Qahab-Nəcəfəlidizə-Naxışnərgiz avtomobil yolu da əhatə etdiyi kəndlərdə əhalinin rahatlığının təmin olunmasına şərait yaradacaqdır".

Sonra Ali Məclisin Sədri yolun açılışını bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, əsaslı şəkildə yenidən qurulan yolun hərəkət hissəsinin eni 8 metrdir. Yola yeni asfalt örtük salınmış, 4 selötürücü, 75 suötürücü tikilmiş, yolun kənarı boyunca 1211 metr məsafədə kanal çəkilmişdir. Yol yatağının genişləndirilməsi və müvafiq yol-hərəkət nişanlarının quraşdırılması avtomobillərin rahat və təhlükəsiz hərəkətinə imkan verəcəkdir.

*Ardı 2-ci səhifədə*

# Müasir məktəb binası tədrisin keyfiyyətini yüksəldəcəkdir



Təhsil sahəsində həyata keçirilən islahatlar ölkənin gələcək inkişafına xidmət edir. Savadlı, intellektli, zəngin dünyagörüşlü və vətənpərvər gənclik isə bu inkişafın əsas təminatçılarıdır. Hər il muxtar respublikada onlarla yeni məktəb binasının istifadəyə verilməsi, müasir tədris şəraitinin yaradılması da məhz bu məqsədə xidmət edir.

Sentyabrın 22-də Qahab kənd tam orta məktəbinin yeni binasının açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış mərasimində iştirak etmişdir.

Məktəbin direktoru Müzəffər Zamanov çıxış edərək demişdir ki, aparılan quruculuq işlərindən sonra Qahab kənd tam orta məktəbi müasir görkəm almışdır. Məktəbdə tədrisin günün tələbləri səviyyəsində qurulması üçün bütün imkanlar vardır. Bu da kollektivi daha səylə çalışmağa sövq edir. Yaradılan şərait gələcəkdə məktəbin nailiyyətlərini daha da artırmağa imkan verəcəkdir.





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Qahab kənd tam orta məktəbinin yeni binasının istifadəyə verilməsi münasibətilə sakinləri və kollektivi təbrik edərək demişdir: "Bu gün Qahab kəndinin həyatında əlamətdar gündür. Ona görə ki, aparılan kompleks quruculuq işlərinin nəticəsi olaraq kənddə yeni sosial obyektlər istifadəyə verilir. Tikilən müasir məktəb binası və digər sosial obyektlər, ümumilikdə, kəndin inkişafına, əhalinin sağlamlığının qorunmasına, onların rahat yaşayışının təmin olunmasına və gənclərin hərtərəfli təhsil almasına xidmət edəcəkdir".






Ali Məclisin Sədri demişdir: "Təhsil hər bir ölkənin həyatında vacib sahədir. Ona görə ki, ölkənin gələcəyini təmin etmək üçün vətənpərvər və təhsilli gənclik yetişdirmək lazımdır. Bu gün ölkəmizdə gənclərin təhsil alması üçün lazımi şərait yaradılır, yeni məktəb binaları tikilir, bu sahəyə hərtərəfli dövlət qayğısı göstərilir. Yaradılan şərait isə qarşıya mühüm vəzifələr qoyur. Bu gün məktəblərin üzərinə düşən əsas vəzifə təhsil verməklə yanaşı, həm də gənclərimizə müstəqil qərarlar qəbul etməyi öyrətməkdir. Çünki hər bir gənc qabiliyyətinə və həvəsinə görə ixtisas seçir, gələcək həyatını bu ixtisaslara dərindən yiyələnməklə qurur. Bunun üçün ölkəmizdə lazımi şərait yaradılmış, ümumtəhsil, peşə, orta ixtisas və ali təhsil pillələri üzrə gənclərin təhsil alması təmin olunmuşdur".

Ali Məclisin Sədri demişdir: "Təhsil müəssisələrində yaradılan şərait şagirdlərin qarşısında mühüm vəzifələr qoyur. Hər bir şagird hansı təhsil pilləsi üzrə təhsil almasından asılı olmayaraq, ilk növbədə, peşə öyrənməli, vətənpərvər böyüməli, gələcəkdə ölkəmizə xidmət etməlidir. Ümumtəhsil məktəblərində gənclərin maraqlarına və bacarıqlarına uyğun olaraq peşələrə yönəldilməsi diqqət mərkəzində saxlanılmalıdır. Qahab kənd tam orta məktəbində hər cür şərait yaradılmışdır. Məktəb yeni informasiya-kommunikasiya texnologiyaları ilə təmin olunmuş, lazımi tədris avadanlıqları quraşdırılmışdır. Bu da müəllimlərin yaradılan şəraitdən düzgün istifadə etməsinə, şagirdlərə müasir biliklərin öyrədilməsinə və onların gələcək peşə seçiminə şərait yaradacaqdır".

Ali Məclisin Sədri göstərilən qayğıdan səmərəli istifadə olunacağına, təhsilli və vətənpərvər gənclərin yetişdiriləcəyinə əminliyini bildirmiş, kollektivə tədrisdə uğurlar arzulamışdır.

Sonra Ali Məclisin Sədri Babək rayon ümumtəhsil məktəblərində əla qiymətlərlə oxuyan bir qrup şagirdə kompüter dəsti hədiyyə etmiş, açılışı bildirən lenti kəsmişdir.



Məlumat verilmişdir ki, zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olan məktəb binası 612 şagird yerlikdir. Məktəbdə 34 sinif otağı, fizika və kimya laboratoriyaları, hərbi kabinə, 3 kompüter otağı, 4 elektron lövhəli sinif, 2 müəllimlər otağı, kitabxana, bufet, idman zalı və açıq idman qurğuları vardır.

Pulsuz dərsliklərlə təminatla yanaşı, zəngin fonda malik kitabxanaların istifadəyə verilməsi də şagirdlərin dünyagörüşünün formalaşmasına xidmət edir. Məktəbin 14 min 314 kitab fonduna malik yeni kitabxanası bədii ədəbiyyat və tədris planlarında nəzərdə tutulmuş fənlərə dair dərsliklərlə zənginləşdirilmişdir. Kitabxanada kompüter dəstinin quraşdırılması və internetə qoşulması isə internet resurslarından səmərəli istifadə etməklə elektron nəşrlərin əldə olunmasına imkan verəcəkdir.

Ali Məclisin Sədri birinci sinifdə oxuyan şagirdlərin dərs prosesi ilə maraqlanmışdır. Bildirilmişdir ki, bu il məktəbin birinci sinfinə 46 şagird qəbul olunmuşdur. Yaradılan müasir şərait, tətbiq olunan yeni tədris metodları dərslərin daha səmərəli və asan mənimsənilməsinə, şagirdlərin məntiqi təfəkkürünün möhkəmləndirilməsinə imkan verir.

Lazımi cihaz və avadanlıqlarla təchiz olunmuş fizika, kimya və biologiya laboratoriyaları biliklərin təcrübi yolla möhkəmləndirilməsinə şərait yaradacaqdır.

Şahmat zehni idman növü kimi uşaqların əqli inkişafına kömək edir, onlarda diqqətli olmaq, müqayisə aparmaq vərdişlərinin formalaşdırılmasına şərait yaradır. Bu səbəbdən də muxtar respublikada şahmatın kütləviliyinə və onun təbliğinə xüsusi diqqət yetirilir, ümumtəhsil məktəblərində şahmat fənni tədris olunur. Qahab kənd tam orta məktəbində şahmat sinfinin istifadəyə verilməsi də bu sahədə görülən işlərin tərkib hissəsidir.

Məlumat verilmişdir ki, kompüter otaqlarındakı 57 kompüter dəstinin hər biri internetə qoşulmuşdur. Bütün bunlar "informatika" fənninin daha səmərəli keçilməsinə və informasiya-kommunikasiya texnologiyalarına əsaslanan tədris metodlarından istifadəyə köməklik göstərəcəkdir.

Elektron lövhəli sinfə baxış zamanı 55 ümumtəhsil məktəbi ilə Naxçıvan Dövlət Tarix Muzeyi arasında videobağlantı vasitəsilə "Naxçıvanın 5 min illik tarixi" mövzusunda dərs tədris olunmuşdur.

Ali Məclisin Sədri distant təhsilin əhəmiyyətini vurğulamış, məktəb-muzey əlaqələrinin tədris formasına keçirilməsi barədə müvafiq tapşırıqlar vermişdir.

İdman gənclərin fiziki cəhətdən sağlam böyüməsində mühüm əhəmiyyətə malikdir. Ona görə də təhsil müəssisələrində bədən tərbiyəsi və fiziki tərbiyə dərslərinin müasir tələblər səviyyəsində tədrisi vacib şərtdir. Qahab kənd tam orta məktəbində də bədən tərbiyəsi və fiziki tərbiyə fənninin tədrisi üçün müasir şərait yaradılmış, idman zalı istifadəyə verilmişdir.

Gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi üçün hərbi kabinədə bütün imkanlar vardır. Burada sıra, atəş, mühəndis və tibb hazırlıqlarını əks etdirən stendlər və digər əyani vasitələr qoyulmuşdur.

Pedaqoji kollektivlə görüşən Ali Məclisin Sədri demişdir ki, təhsilin inkişafında əsas amillərdən biri də müasir tədris şəraitinin yaradılmasıdır. Qahab kənd tam orta məktəbi informasiya texnologiyaları ilə təmin edilmiş, ən yeni tədris metodlarının tətbiqinə başlanılmışdır. Bu da kollektiv qarşısında yeni vəzifələr qoyur. Vətənpərvər, savadlı və intellektli gənclik yetişdirmək pedaqoji heyəti daim düşündürməli, yaradılanlardan səmərəli istifadə olunmalı, məktəbdə tədrisin səviyyəsi yüksəldilməlidir.

Müəllimlər göstərilən qayğı müqabilində səylə çalışacaqlarına söz vermişlər.

Binanın həyətində də abadlıq tədbirləri görülmüş, gülkarlıq və meyvə bağı salınmışdır.

*Ardı 3-cü səhifədə*

# Kənd mərkəzində müasir iş şəraiti yaradılmışdır





Naxçıvan Muxtar Respublikasında aparılan quruculuq tədbirləri çərçivəsində hər il onlarla yeni kənd mərkəzi istifadəyə verilir. Sakinlərə göstərilən xidmətlərin mərkəzləşmiş qaydada təşkilinə şərait yaradan kənd mərkəzlərinin inşası cari ildə də diqqət mərkəzində saxlanılmışdır.

Sentyabrın 22-də Qahab Kənd Mərkəzinin açılışı olmuşdur.

Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Mirzəmməd Qasımov demişdir ki, göstərilən dövlət qayğısı Qahab kəndinin simasını tamamilə dəyişmişdir. Bu gün kənddə insanların rahat yaşayışına xidmət edən ən müasir infrastruktur yaradılmışdır. Kənd qazlaşdırılmış, mənzillərə telefon çəkilmiş, elektrik enerjisi təminatı fasiləsiz həyata keçirilir. Bu gün istifadəyə verilən sosial obyektlər isə Qahab kəndinə daha müasir görkəm bəxş etmişdir. Yaradılan şəraitin nəticəsidir ki, sakinlər fərdi təsərrüfatlarını genişləndirir, kənddə əkinçilik, maldarlıq inkişaf etdirilir. Bütün bunlar isə insanların rifahının yaxşılaşdırılmasına səbəb olur. İnzibati ərazi dairəsi üzrə nümayəndə göstərilən qayğıya görə sakinlər adından minnətdarlığını bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Qahab kəndində aparılan quruculuq işlərinin mühüm əhəmiyyətə malik olduğunu bildirərək demişdir: “Bu gün istifadəyə verilən yeni məktəb binası kənddə uşaqların yaxşı təhsil almasına, kənd mərkəzi dövlət qurumlarının fəaliyyətinin səmərəli təşkilinə, həkim ambulatoriyası insanların sağlamlığının qorunmasına, yol isə onların rahatlığının təmin olunmasına xidmət edəcəkdir. Ümumilikdə isə bütün bunlar kəndin inkişafına hesablanmış tədbirlərdir”.

Ali Məclisin Sədri demişdir: “Kəndlə şəhər arasındakı fərqin aradan qaldırılması aparılan abadlıq-quruculuq işlərindən, yaradılan müasir infrastrukturdan asılıdır. Belə ki, kəndlərin tamamilə qazlaşdırılması, elektrik enerjisinin fasiləsiz verilməsi, internetdən istifadə, televiziya yayımlarının həyata keçirilməsi insanların rahat yaşayışına və əhalinin daha sıx məskunlaşmasına səbəb olur. Bu gün Qahab kəndində yaradılan şərait də əhalinin problemlərinin vaxtlı-vaxtında həll olunmasına, onların öz təsərrüfatları ilə rahat məşğul olmalarına imkan verəcəkdir”.

Ali Məclisin Sədri aparılan quruculuq işləri münasibətilə kənd sakinlərini təbrik etmiş, açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, kənd mərkəzi 4 minə yaxın sakinə xidmət edəcəkdir. Mərkəzdə rabitə evi, polis sahə və baytarlıq məntəqələri, kitabxana, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, arxiv, mədəniyyət evi və 83 yerlik iclas zalı vardır. Kitabxana fonduna 8 min 466 kitab verilmişdir. Onlardan 1266-sı latın, 7 min 200-ü isə kiril əlifbası ilə çap olunmuş ədəbiyyatlardır.

Rabitə evində 512 nömrəlik yeni ATS quraşdırılmışdır. Burada 385-i Qahab və 70-i Naxışnərgiz kəndlərində olmaqla, 455 abonentə xidmət göstərilir. Yeni poçt məntəqəsində gündəlik mətbuatın, eləcə də danışıq və internet kartlarının satışı təşkil olunmuşdur.

Lazımi avadanlıq və dərman preparatları ilə təmin olunan baytarlıq məntəqəsi də Qahab və Naxışnərgiz kəndlərində heyvandarlığın inkişafına xidmət göstərəcəkdir. Bildirilmişdir ki, hər iki kənddə heyvandarlıq təsərrüfatının inkişafı baytarlıq xidmətinin günün tələbləri səviyyəsində qurulmasını zəruri edir. Məntəqənin həkimləri mütəmadi olaraq fərdi təsərrüfatlarda dezinfeksiya işləri aparır, yoluxucu xəstəliklərin qarşısının alınması məqsədilə müvafiq tədbirlər görürlər.

Binada Yeni Azərbaycan Partiyası Qahab kənd ərazi ilk təşkilatı və inzibati ərazi dairəsi üzrə nümayəndəlik üçün də müasir iş otaqları yaradılmışdır. Məlumat verilmişdir ki, Yeni Azərbaycan Partiyası Qahab kənd ərazi ilk təşkilatının 143 üzvü vardır. Onlar arasında gənclər və qadınlar üstünlük təşkil edir.

Binanın ikinci mərtəbəsində Qahab kənd bələdiyyəsi və mədəniyyət evi işçiləri üçün ayrılan iş otaqlarında da nümunəvi xidmət şəraiti vardır.

# Qahab kəndində əhaliyə nümunəvi səhiyyə xidməti göstəriləcəkdir





Sentyabrın 22-də Qahab kənd həkim ambulatoriyasının yeni binasının açılışı olmuşdur.

Həkim Leylan Həsənova yaradılan şəraitə görə minnətdarlıq etmiş, sakinlərin sağlamlığının qorunması istiqamətində səylə çalışacaqlarını bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov həkim ambulatoriyasının istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək demişdir: “Yeni həkim ambulatoriyası kənddə əhaliyə göstərilən səhiyyə xidmətinin günün tələbləri səviyyəsində qurulmasına imkan verəcəkdir. Binada lazımi şərait yaradılmışdır. Kollektiv göstərilən qayğıdan səmərəli istifadə etməli, insanların sağlamlığının keşiyində dayanmalıdır. Əhali arasında mütəmadi olaraq maarifləndirmə işləri aparılmalı, gigiyena qaydalarına əməl olunmalı, hamilə qadınlar qeydiyyata götürülərək patronaj xidməti göstərilməli, uşaqlara vaxtlı-vaxtında peyvəndlər vurulmalıdır. Bütün bunların həyata keçirilməsi insanların sağlamlığının daha etibarlı qorunmasına, yoluxucu və digər xəstəliklərin qarşısının vaxtında alınmasına imkan verəcəkdir”.

Ali Məclisin Sədri qarşıya qoyulan vəzifələrin icrasında kollektivə uğurlar arzulamış, açılışı bildirən lenti kəsmişdir.

Bildirilmişdir ki, 2 mərtəbəli ambulatoriya binasında 8 tibb işçisi əhalinin sağlamlığının qayğısına qalır. Ambulatoriyada stomatoloji kabinə, peyvənd, aptek, mama, baş həkim, tibb bacısı, manipulyasiya otaqları və doğuş zalı vardır. Səhiyyə müəssisəsi lazımi dərman vasitələri ilə təmin olunmuş, ilkin tibbi yardım və peyvənd çantaları qoyulmuşdur.

Bina istilik sistemləri ilə təchiz olunmuş, həyətdə abadlıq işləri görülmüşdür.

# Yeni xidmət mərkəzi istifadəyə verilmişdir






Qahab kəndində aparılan kompleks quruculuq tədbirləri çərçivəsində yeni xidmət mərkəzi də tikilərək istifadəyə verilmişdir.

Ali Məclisin Sədri xidmət mərkəzinin açılışını etmişdir.

Xidmət mərkəzində yaradılan müasir şərait sakinlərin gündəlik tələbatını tamamilə ödəyəcəkdir. Mərkəzdə bərbərxana, qadın gözəllik salonu, dərzi, ət satışı yeri, ərzaq və sənaye malları mağazaları fəaliyyət göstərir. Xidmət mərkəzində 10 nəfər işlə təmin olunmuşdur.

Ardı 4-cü səhifədə



Xidmət mərkəzi ilə tanışlıqdan sonra Ali Məclisin Sədri kənd sakinləri ilə görüşmüşdür.

Sakin Yəhya Əsgərov demişdir ki, bu gün ölkəmizdə ümummilli liderimizin siyasi xəttinin davam etdirilməsi hər bir yaşayış məntəqəsinə inkişaf, tərəqqi və müasirlik gətirmişdir. Qahab kəndinə də bu qayğıdan pay düşmüşdür. Kənddə yaşayışın təmin olunması üçün bütün şərait yaradılıb. Sakinlər görülən bu işləri insan amilinə verilən qiymət kimi dəyərləndirirlər.

Ali Məclisin Sədri Qahab kəndinin müasirləşməsini ölkəmizin ümumi inkişafının və xalq-dövlət birliyinin nəticəsi kimi dəyərləndirərək demişdir: "Bu gün ölkəmizin hər yerində abadlıq işləri görülür, yeni iş yerləri açılır, insanların rifahı yüksəldilir. Kənd yaşayış məntəqələrində həyata keçirilən kompleks quruculuq işləri insanların ölkəmizin sabahına olan ümidini artırır. Bu gün Qahab kəndində istifadəyə verilən yeni sosial obyektlər, ilk növbədə, əhalinin rahatlığına hesablanmışdır. Kənd əhalisi də qurulanların qorunub saxlanılmasında fəal iştirak etməli, ölkəmizin inkişafına öz töhfələrini verməlidir".

* * *

Qahab kəndində aparılan abadlıq işləri çərçivəsində rabitə xidmətinin təkmilləşdirilməsi məqsədilə 400 metr fiber-optik, 2500 metr uzunluğunda müxtəlifutumlu yeraltı kabel çəkilmişdir. Həmçinin 600 metr uzunluğunda elektrik xətti çəkilmiş, 250 kilovolt-amper gücündə yeni transformator yarımstansiyası quraşdırılmışdır. Qahab kənd tam orta məktəbinə Nəcəfəlidizə kənd kəhrizindən 3 min 900 metr uzunluğunda içməli su xətti çəkilmişdir. Həmçinin kənddə yolların kənarları boyu 320 metr uzunluğunda hasar tikilmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**



## Naxçıvan Muxtar Respublikası Milli Təhlükəsizlik Nazirliyinin yaradılmasının 22-ci ildönümü qeyd edilmişdir

Sentyabrın 20-də Naxçıvan Muxtar Respublikası Milli Təhlükəsizlik Nazirliyinin yaradılmasının 22-ci ildönümü münasibətilə Naxçıvan Muxtar Respublikası Milli Təhlükəsizlik Nazirliyində tədbir keçirilmişdir.

Nazirliyin əməkdaşları əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin nazirliyin inzibati binasındakı barelyefi önünə gül dəstəsi qoyaraq ulu öndərin xatirəsini ehtiramla yad etmiş, sonra nazirlikdə fəaliyyət göstərən Heydər Əliyev Muzeyinə baxmışlar.

Yığıncaq nazirliyin akt zalında davam etdirilmişdir. Tədbir Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlanmışdır.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının milli təhlükəsizlik naziri, general-mayor Vəli Ələsgərov nazirliyin şəxsi heyətini peşə bayramı münasibətilə təbrik edərək onlara ölkəmizin milli maraqlarının və təhlükəsizliyinin qorunması naminə xidmətdə, məsuliyyətli və şərəfli fəaliyyətlərində uğurlar arzulamışdır.

Vəli Ələsgərov nazirliyin yaranması haqqında danışaraq bildirmişdir ki, ümummilli lider Heydər Əliyev Naxçıvan Muxtar Respublikasında xalqın dəstəyi ilə milli dövlətçiliyin bərpası uğrunda apardığı böyük siyasi fəaliyyətində ölkəmizin ərazi bütövlüyünün və təhlükəsizliyinin qorunmasını mühüm prinsip kimi qəbul etmiş, muxtar respublikamızın müdafiəsinin və təhlükəsizliyinin təşkili məqsədilə xüsusi xidmət və hüquq-mühafizə orqanlarının yenidən qurulmasını özünəməxsus peşəkarlıqla həyata keçirmişdir. Dahi şəxsiyyət xüsusi xidmət orqanlarımıza rəhbərlik etdiyi və Azərbaycanda siyasi hakimiyyətdə olduğu dövrlərdə milli təhlükəsizlik orqanlarını formalaşdırmış, milli dövlətçilik ənənələrini yaşadacaq gələcək nəsillər üçün müqəddəs və zəngin irs yaratmışdır.

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun xalq və dövlətçilik naminə qətiyyətli və yorulmaz xidməti nəticəsində blokada şəraitində olmasına baxmayaraq, bu gün diyarımız dinamik sosial-iqtisadi inkişafa nail olaraq tərəqqi yolunda irəliləməkdədir. Bu tərəqqi bütün sahələrlə yanaşı, xüsusi xidmət orqanlarımızı da əhatə etmiş, milli təhlükəsizliyimizə olan təhdidlərlə, həmçinin cinayətkarlıqla mübarizədə imkanları genişləndirmişdir. Muxtar respublika rəhbərinin qayğısını daim üzərində hiss edən nazirliyin maddi-texniki bazasının möhkəmləndirilməsi cari ildə də davam etdirilmiş, qarşıya qoyulan vəzifələrin daha çevik və keyfiyyətlə yerinə yetirilməsinə istiqamətlənmiş mühüm struktur islahatları həyata keçirilmişdir.

Bildirilmişdir ki, Milli Təhlükəsizlik Nazirliyi keçən dövr ərzində ümumi inkişafa yönəlmiş dövlət siyasətinin həyata keçirilməsində və sabit ictimai-siyasi mühitin yaradılmasında digər dövlət orqanları ilə əlaqəli fəaliyyət göstərmiş, dövlətimizin milli mənafelərinin qorunmasında mühüm rolu olan aparıcı dövlət orqanlarından birinə çevrilmişdir. Əks-kəşfiyyat xətti üzrə əməliyyat şəraiti diqqət mərkəzində saxlanılaraq narkotik vasitələrin qaçaqmalçılığı, qeyri-leqal miqrasiya və mütəşəkkil cinayətkarlıqla bağlı digər sahələrdə də mübarizə ardıcıl davam etdirilmişdir.

Sonra çıxışlar olmuşdur.

Tədbirin sonunda xidmətdə fərqlənmiş əməkdaşlar mükafatlandırılmış, ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş sənədli film nümayiş etdirilmişdir.

***Naxçıvan Muxtar Respublikası***
***Milli Təhlükəsizlik Nazirliyinin***
***mətbuat xidməti***

*Sentyabrın 20-də Naxçıvan şəhərindəki Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində Beynəlxalq Sülh Günü qeyd olunub. "Sülh dünyanın səadət və firavanlıq rəmzidir!" mövzusunda keçirilən IV muxtar respublika şeir, inşa-yazı və rəsm müsabiqəsinin qalibləri müəyyənləşdirilib.*

## Beynəlxalq Sülh Günü münasibətilə müsabiqə keçirilib



Tədbirdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Aytən Məmmədova çıxış edərək Beynəlxalq Sülh Gününün tarixi haqqında məlumat verib. Bildirib ki, Beynəlxalq Sülh Günü insanların sülh şəraitində yaşamaq hüququ ilə yanaşı, bütün insan hüquq və azadlıqlarının gerçəkləşməsini, hər bir istəyə sülh şəraitində çatmağın mümkünlüyünü təcəssüm etdirir. İnsanlar arasında sülh mədəniyyətini təbliğ etmək zəruridir. Vurğulanıb ki, əbədi mövzu olan sülh mövzusu bu gün torpaqlarının 20 faizi işğal altında olan ölkəmiz üçün də xüsusi əhəmiyyət kəsb edir.

Naxçıvan Muxtar Respublikası təhsil nazirinin müavini Məmməd Qəribov çıxış edərək şeir, inşa-yazı və rəsm müsabiqəsinin əhəmiyyətindən danışıb, muxtar respublikanın təhsil və məktəbdənkənar müəssisələrində yaradılmış şəraitdən bəhs edib.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Yadigar, Azərbaycan Rəssamlar İttifaqının üzvü Əli Səfərov çıxışlarında sülh mövzusunun bədii yaradıcılıq nümunələrində əksini tapdığını qeyd edərək belə müsabiqələrin keçirilməsinin istedadlı uşaq, yeniyetmə və gənclərin üzə çıxarılmasında mühüm rol oynadığını iştirakçıların diqqətinə çatdırıblar.

Sonra Heydər Əliyev adına Hərbi Lisey kursantlarının və muxtar respublikanın ümumtəhsil məktəbləri şagirdlərinin iştirak etdiyi "Sülh dünyanın səadət və firavanlıq rəmzidir!" IV muxtar respublika müsabiqəsinin qalibləri müəyyənləşdirilib.

Qaliblər Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin diplom və hədiyyələri ilə mükafatlandırılıblar.

**Sara ƏZİMOVA**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 815